**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XALQ ARTİSTİ AZƏR DADAŞOVUN FORTEPİANO MUSİQİSİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **İlhamə Xankişi qızı Xankişiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Musiqi tarixi” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü,
sənətşünaslıq doktoru, professor
**Rəna Azər qızı Məmmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Leyla Zəki qızı Quliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Elmira Pənah qızı Pənahova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının
sədr müavini: sənətşünaslıq doktoru, professor
________________ **Tariyel Aydın oğlu Məmmədov**

Dissertasiya şurasının
elmi katibi: sənətşünaslıq doktoru, dosent
________________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
________________ **Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan bəstəkarlıq məktəbinin parlaq simalarından biri, Humay mükafatı laureatı, Xalq artisti, professor, pedaqoq və ictimai xadim, özünəməxsus dəsti-xətti ilə seçilən bəstəkar Azər İsmayıl oğlu Dadaşovun yaradıcılığı hər zaman musiqi ictimaiyyətinin diqqət mərkəzindədir. Bəstəkarın zəngin və hərtərəfli yaradıcılıq irsi müasir Azərbaycan musiqi mədəniyyətinin dəyərli səhifələrini təşkil etməklə yanaşı, geniş tədqiqat sahəsi kimi də aktualdır. Təsadüfi deyil ki, A.Dadaşovun yaradıcılığının müxtəlif sahələri ilə bağlı maraqlı tədqiqat işləri yazılmışdır və bu proses davam etməkdədir. Çünki hər zaman yeni əsərlərlə musiqi ictimaiyyətinin rəğbətini qazanan bəstəkar qarşısına yeni məqsədlər qoyaraq və yaradıcılıq qayəsini zənginləşdirərək daim axtarışdadır. Yaranan hər yeni əsərdə dinləyicini düşündürən, diqqətini cəlb edən mövzuların açılması, müasir insanı narahat edən ümumbəşəri problemlərin şərhi bu yaradıcılıq yolunun izlənməsini və tədqiqini aktuallaşdırır.

A.Dadaşov simfonik orkestr üçün "Xocalıya ədalət", "Pastoral süitası", "Divertisment", "Zəfər çələngi" əsərlərinin, 15 simfoniya, "Lugubre və Scherzo", "Konsertino", "Adagietto və Scherzino" kimi kamera əsərlərinin, müxtəlif alətlər üçün sonata, sonatina və s., nəfəsli kvintet üçün "İçərişəhər", "Balaca Muqun sərgüzəştləri" uşaq operası, "Şərq freskası" balet miniatürü, "Fitnə" baleti, 10-dan artıq kantata, mahnı və romanslar, Paralimpiya himni, müxtəlif məzmunlu xor əsərləri, dram tamaşalarına və kinofilmlərə musiqi, o cümlədən, fortepiano və kamera orkestri üçün üç konsert, Poema, eləcə də "Atmacalar", "Çiçəkçin", "Altı prelüd", "Altı qəmli pyes", "Lirik pyeslər" miniatür silsilələrinin, ayrı-ayrı pyeslərin və s. müəllifidir.

Musiqinin, demək olar ki, bütün janrlarında yazıb yaradan bəstəkar A.Dadaşovun fortepiano musiqisi xüsusi olaraq tədqiqat obyekti kimi olduqca maraqlı və aktualdır. Bu aktuallığı şərtləndirən bir neçə amili vurğulamaq lazımdır. A.Dadaşovun fortepiano yaradıcılığı özündə müxtəlif həcmli və janrlı, rəngarəng obrazlarla zəngin musiqi əsərlərini ehtiva edir. Burada fortepiano və orkestr üçün konsertlərdən başlamış, ən kiçik formalarda yazılan miniatürlərə qədər

dəyərli bir irs ərsəyə gəlmişdir. Dissertasiya işinin aktuallığını şərtləndirən əsas cəhətlərdən biri A.Dadaşovun fortepiano musiqisinin ilk dəfə xüsusi olaraq tədqiqat obyekti kimi işlənməsi ilə bağlıdır. XX əsrin ikinci yarısından bu günə qədər milli fortepiano musiqisinin əhəmiyyətli hissəsini təşkil edən bu əsərlərin araşdırılması, öyrənilməsi həm bəstəkar yaradıcılığı, həm də ifaçılıq sənətinin inkişaf istiqamətlərinin işıqlandırılması baxımından mühümdür. Bu da təqdim edilən işin mövzusunu hər iki aspektdən aktuallaşdırır.

A.Dadaşovun fortepiano musiqisi Azərbaycan bəstəkarlıq məktəbinin XX əsrin ikinci yarısından etibarən keçdiyi dinamik inkişaf yolunun bir parçası olaraq onun əsas cəhətlərini özündə əks etdirir. Burada mühüm faktor kimi çıxış edən Qarayev bəstəkarlıq məktəbinin ənənələri ilə yanaşı, müasir musiqi üslubları və milli ənənələrin sintezindən cilalanan fərdi musiqi dilində mövcud təmayüllərin təzahürü də qeyd edilməlidir. 2009-cu ildən başlayaraq "A.Dadaşovun əsərlərinin ən yaxşı ifaçısı" adı ilə müsabiqələr təşkil olunur. Mütəmadi olaraq keçirilən bu müsabiqələrdə (2009,2013, 2016,2019,2021,2023) Azərbaycan piano ifaçılığının ən gənc nümayəndələri, eyni zamanda beynəlxalq səviyyədə dünyanın bir sıra ölkələrindən də pianoçular fəal iştirak edir. Bu müsabiqələrin hər dəfə daha geniş pianoçu və dinləyici kütləsinin marağına səbəb olması isə bu mövzunun həm də milli fortepiano ifaçılığının tədqiqi baxımdan da aktuallığını üzə çıxarmış olur.

Bəstəkarın yaradıcılıq irsinin musiqi ictimaiyyətinin və tədqiqatçıların diqqət mərkəzində olması, mütəmadi olaraq müraciət etdiyi simfonik musiqinin daha çox öyrənilməsinə və bir sıra elmi tədqiqatların, monoqrafiyaların ərsəyə gəlməsinə zəmin yaratmışdır. Bu sırada Nərgiz Qulamovanın 2006-cı ildə nəşr etdirdiyi "Bəstəkar Azər Dadaşovun simfonik yaradıcılığına bir baxış"[1], Natalya Dadaşovanın 2012-ci ildə çap olunmuş "Симфонии Азера Дадашева"[2] (Azər Dadaşovun simfoniyaları) monoqrafiyalarını misal göstərmək olar. Bəstəkarın kamera-instrumental yaradıcılığı Minaxanım Babayevanın

---

[1] Qulamova, N.K. Bəstəkar Azər Dadaşovun simfonik yaradıcılığına bir baxış / N.K.Qulamova. – Bakı: Adiloğlu, – 2006. – 132 s.

[2] Дадашева, Н.К. Симфонии Азера Дадашева / Н.К.Дадашева. – Баку: Təhsil, – 2012. – 223 s.

“Azər Dadaşovun kamera musiqisinin üslub xüsusiyyətləri” fəlsəfə doktoru dissertasiyasında[3] araşdırılmışdır. Bu araşdırmada bəstəkarın 1 saylı fortepiano konsertinin təhlili də yer alıb. Müəllifin “Azər Dadaşovun musiqi dünyası” adlı monoqrafiyası[4] isə 2019-cu ildə işıq üzü görmüşdür.

Fortepiano musiqisinə iri və kiçik həcmli janrlar daxilində geniş şəkildə müraciət edən bəstəkarın əsərləri xüsusi tədqiqat obyekti olaraq öyrənilməsə də, müəyyən elmi araşdırmalarda bu mövzuya qismən toxunulmuşdur. Bu baxımdan Azərbaycan fortepiano sənətini ifaçılıq və bəstəkar yaradıcılığı kontekstində araşdırmış tədqiqatçı alim Tərlan Seyidovun monoqrafiyaları xüsusilə qeyd edilməlidir. Müəllifin “XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı”[5] və “Развитие жанров азербайджанской фортепианной музыки”[6] (Azərbaycan fortepiano janrlarının inkişafı) monoqrafiyalarında A.Dadaşovun müxtəlif əsərlərinin təhlili aparılmışdır. Bundan başqa Ülviyyə Kazımova “Azərbaycan bəstəkarlarının iri həcmli fortepiano əsərlərinin ifaçılıq xüsusiyyətləri”[7] fəlsəfə doktoru dissertasiyasında A.Dadaşovun fortepiano sonatinalarını tədqiqata cəlb etmişdir. Nuranə Zeynalova “Azər Dadaşovun fortepiano üçün “Lirik pyeslər” silsiləsinin obrazlı-emosional məzmunu və ifaçılıq metodları”[8] məqaləsində bəstəkarın “Lirik pyeslər” məcmuəsinin təhlilini, Rövşanə Kərimova “Bəstəkar

---

[3] Babayeva, M.İ. Azər Dadaşovun kamera musiqisinin üslub xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası /– Bakı, 2016. – 161 s.

[4] Babayeva, M.İ. Azər Dadaşovun musiqi dünyası / M.İ.Babayeva. – Bakı: ADPU, – 2019. – 213 s.

[5] Seyidov, T.M. XX əsr Azərbaycan Fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkar yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.

[6] Сеидов, Т.М. Развитие жанров азербайджанской фортепианной музыки / Т.М.Сеидов. – Баку: Шур, – 1992. – 307 с.

[7] Kazımova, Ü.İ. Azərbaycan bəstəkarlarının iri həcmli fortepiano əsərlərinin ifaçılıq xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 2011. – 173 s.

[8] Zeynalova N.Ş. Azər Dadaşovun fortepiano üçün “Lirik pyeslər” silsiləsinin obrazlı-emosional məzmunu və ifaçılıq metodları // – Bakı: Musiqi dünyası, – 2022. – №4 (93), – s. 86-91.

yaradıcılığında dini mövzuların tətbiqi yolları"[9] və İradə Hüseynova "Azər Dadaşovun dini mövzulu iki vokal əsəri"[10] elmi məqalələrində isə bəstəkarın dini movzuda yazılmış əsərləri haqqında məlumat vermişlər. Adı çəkilən bütün elmi mənbələr tədqiqatımızda istinad edilən əsas mənbələr sırasında yer alır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini A.Dadaşovun fortepiano yaradıcılığı təşkil edir. Bəstəkarın fortepiano yaradıcılığında yer alan əsərlərində özünü göstərən səciyyəvi üslub xüsusiyyətləri (janr, obraz, məzmun və forma, ənənə və müasirlik, musiqi dili və s.) isə tədqiqatın predmeti kimi göstərilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində əsas məqsəd bəstəkar A.Dadaşovun fortepiano yaradıcılığını tədqiq etmək və əsas üslub cizgilərini aşkara çıxarmaq, milli musiqi sənətindəki yeri və mövqeyini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1) A.Dadaşovun fortepiano yaradıcılığının Azərbaycan milli musiqi sənəti kontekstində əhəmiyyətini müəyyənləşdirmək;

2) A.Dadaşovun fortepiano əsərlərinin musiqi nəzəri təhlilini aparmaq, janr və forma, məzmun və obraz-ideya, musiqi dilinin səciyyəvi ifadə vasitələrinin tətbiqi ilə bağlı suallara aydınlıq gətirmək;

3) A.Dadaşovun fortepiano əsərlərinin təhlil yekunlarına əsaslanaraq bəstəkarın fərdi üslub cizgilərini üzə çıxarmaq və onun dövrün səciyyəvi musiqi təmayülləri ilə əlaqəsini işıqlandırmaq;

4) A.Dadaşovun fortepiano əsərlərində təzahür edən əsas xüsusiyyətlərin bəstəkarın bütün yaradıcılığı və sırf fortepiano musiqisi üçün səciyyəvi olanlarını təsnif etmək, Azərbaycan milli musiqi incəsənətinin əsas inkişaf təmayülləri ilə əlaqələrini müəyyənləşdirmək;

5) A.Dadaşovun fortepiano yaradıcılığının milli piano ifaçılığının inkişafında rolu və mövqeyini müəyyənləşdirmək.

**Tədqiqatın metodları.** Dissertasiya işində bəstəkarın ümumi yaradıcılığının və xüsusi olaraq fortepiano musiqisinin Azərbaycan mədəniyyətindəki rolu və mövqeyini müəyyənləşdirmək məqsədilə

---

[9] Kərimova, R.Y. Bəstəkar yaradıcılığında dini mövzuların tətbiqi yolları //– Bakı: Musiqi dünyası, – 2014. – № 3(60), – s.181-186.

[10] Hüseynova, İ.D. Azər Dadaşovun dini mövzulu iki vokal əsəri // – Bakı: Konservatoriya, – 2017. – №1(35), – s.73-77.

tarixi metoddan istifadə edilmişdir. O cümlədən, əsərlərin təhlili zamanı musiqi-nəzəri və üslub xüsusiyyətlərinin üzə çıxarılması məqsədilə müqayisəli metodlardan istifadə edilmişdir.

Musiqişünaslığın ümumi nəzəri prinsipləri, Azərbaycan və xarici musiqişünas alimlərinin, o cümlədən Ü.Hacıbəyli[11,12], R.Zöhrabov[13,14], S.Qasımova[15,16,17], T.Seyidov[18,19,20,21,22], N.Dadaşova[23,24,25], N.Qulamova[26], M.Babayeva[27,28], Ü.Kazımova[29,30] və başqalarının tədqiqatlarına istinad edilmişdir.

---

[11] Hacıbəyov, Ü.Ə. Seçilmiş əsərləri / Ü.Ə.Hacıbəyov. – Bakı: Yazıçı, – 1985. – 653 s.

[12] Hacıbəyov, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyov. – Bakı: Apastrof, – 2010. – 152 s.

[13] Zöhrabov, R.F. Bəstəkarlarımız haqqında söz / R.F.Zöhrabov. – Bakı: Şur, – 1955. – 89 s.

[14] Zöhrabov, R.F. Muğam / R.F.Zöhrabov. – Bakı: Azərnəşr, – 1991. – 219 s.

[15] Qasımova, S.C. Azərbaycan sovet musiqi ədəbiyyatı / S.Qasımova, N.Bağırov. – Bakı: Maarif, – 1984. – 180 s.

[16] Qasımova, S.C. Azərbaycan musiqi ədəbiyyatı / S.A.Qasımova. – Bakı: Adiloğlu, – 2009. – 224 s.

[17] Qasımova, S.A. Seçilmiş məqalələr / S.A.Qasımova. – Bakı: Elm və təhsil, – 2010. – 245 s.

[18] Seyidov, T.M. XX əsr Azərbaycan Fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkar yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.

[19] Сеидов, Т.М. Из истории музыкальной культуры Азербайджана (фортепианная музыка 1960-1970) // Ученые записки АГУ, – Баку: Язычы, – 1980. – 149 с.

[20] Сеидов, Т.М. Развитие жанров азербайджанской фортепианной музыки / Т.М.Сеидов. – Баку: Шур, – 1992. – 307 с.

[21] Сеидов, Т.М. Азербайджанская советская фортепианная музыка (1930-1970) / Т.М.Сеидов. – Баку: Язычы, – 1980. – 149 с.

[22] Сеидов, Т.М. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительства и композиторское творчество / Т.М.Сеидов. – Баку: Аз. Гос. Изд., – 2006. – 272 с.

[23] Дадашева, Н.К. Симфонии Азера Дадашева / Н.К.Дадашева. – Баку: Təhsil, – 2012. – 223 s.

[24] Дадашева, Н.К. 5 вариации на музыку Азера Дадашева / Н.К.Дадашева. На улице Хагани 27. – Баку: Təhsil, – 2014. – s. 88 - 97.

[25] Дадашева, Н.К. На презентации новые издания / Н.К.Дадашева. На улице Хагани 27. – Баку: Təhsil, – 2014. – s. 176 - 178.

[26] Qulamova, N.K. Bəstəkar Azər Dadaşovun simfonik yaradıcılığına bir baxış / N.K.Qulamova. – Bakı: Adiloğlu, – 2006. – 132 s.

[27] Babayeva, M.İ. Azər Dadaşovun kamera musiqisinin üslub xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası /– Bakı, 2016. – 161 s.

Dissertasiya işinə cəlb edilən əsərlər forma, musiqi dili, ritm, intonasiya, ifaçılıq üslubu və s. baxımdan təhlil olunarkən görkəmli rus tədqiqtaçıları L.Mazel[31,32], İ.Sposobin[33], A.Alekseyev[34,35,36,37], T.Livanova[38], E.Denisova[39], N.Prişepa[40] və başqalarının elmi tədqiqatlarında yer alan nəzəri müddəalardan istifadə olunmuşdur.

Tədqiqat işində A.Dadaşovun fortepiano əsərləri, o cümlədən, fortepiano və kamera orkestri üçün birinci, ikinci və üçüncü konsertləri, "Poema"sı, "Atmacalar", "Altı qəmli pyes", "Altı miniatür" (1968), "Altı prelüd", "Altı miniatür" (1978), "Çiçəkçin",

---

28 Babayeva, M.İ. Azər Dadaşovun musiqi dünyası / M.İ.Babayeva. – Bakı: ADPU, – 2019. – 213 s.

29 Kazımova, Ü.İ. Azərbaycan bəstəkarlarının iri həcmli fortepiano əsərlərinin ifaçılıq xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 2011. – 173 s.

30 Kazımova, Ü.İ. Azər Dadaşovun fortepiano sonatinalarında milli üslub xüsusiyyətləri və müasir yazı texnikası / – Türkiyə: Rast Müzikoloji Dergisi, – 2016. – № 2 (cild IV), – s.1244-1253.

31 Мазель, Л.А. Строение музыкальных произведений. / Л.А.Мазель. – Москва, – Музыка, – 1979. – 533 с.

32 Мазель, Л.А. Анализ музыкальных произведений / Л.А.Мазель, В.А.Цуккерман. – Москва: Музыка, – 1967. – 367 с.

33 Способин, И. В. Музыкальная форма / И.В.Способин. – Москва: Музыка, – 5-ое изд., – 1970. – 191 с.

34 Алексеев, А.Д. Из истории фортепианной педагогики / А.Д.Алексеев. – Киев: Музична-Украина, – 1974. – 163 с.

35 Алексеев, А.Д. Методика обучения игре на фортепиано / А.Д.Алексеев. – Москва: Музыка, – 1978. – 288 с.

36 Алексеев, А.Д. История фортепианного искусства / А.Д.Алексеев. – Москва: Музыка, – ч.1-2, – 1988. – 415 с.

37 Алексеев, А.Д. История фортепианного искусства / А.Д.Алексеев. – Москва: Музыка, – ч.3, – 1982. – 782 с.

38 Ливанова, Т.Н. История западноевропейской музыки до 1789 года. / Т.Н.Ливанова. – Москва: Музыка, – 1986. – 462 с.

39 Денисова Е.Н. Неоромантические аспекты в отечественном инструментальном концерте последней трети XX века. Диссертация по ВАК РФ 17.00.02, кандидат искусствоведения 2001, Москва, 261 s. // URL: https://www.dissercat.com/content/neoromanticheskie-aspekty-v-otechestvennom-instrumentalnom-kontserte-poslednei-treti-xx-veka

40 Прищепа Н.А. Фортепианный концерт: история, теория вопроса // URL: http://fki.lgaki.info/2017/04/19/

“Lirik pyeslər” fortepiano silsilələri, “Prelüd-Fuqa-Postlüdiya” polifonik triptixi, “Həmd-səna”, “Fəzanın təranəsi”, “Baqatel”, “Məzəli rəqs” fortepiano miniatürləri bilavasitə təhlilə cəlb edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində qarşıya qoyulan məqsədin həyata keçirilməsi üçün aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

1. A.Dadaşovun fortepiano yaradıcılığının araşdırılması tarixi-nəzəri kontekstdə aparılmış və milli musiqi sənətində rolu və mövqeyi ənənə və müasirliyin vəhdəti baxımdan xüsusi əhəmiyyət kəsb edir;
2. Bəstəkarın fortepiano əsərlərinin janr və forma təsnifatının aparılması nəticəsində iri və kiçik həcmli, proqramlı və proqramsız, sadə və mürəkkəb formalı əsərlər qrupu ilə səciyyələndirilmişdir;
3. A.Dadaşovun fortepiano əsərlərinin musiqi-nəzəri təhlili aparılaraq fərdi üslub cizgiləri üzə çıxarılmışdır ki, bu da dünya və milli musiqi ənənələrinin sintezindən doğan, eləcə də fərdi yaradıcılıq təfsirindən bəhrələnən musiqi ifadə vasitələrinin tətbiqi ilə səciyyəvidir;
4. Fortepiano əsərləri üzərində aparılan təhlillərin yekunu olaraq bəstəkarın yaradıcılığına müxtəlif üslubların, o cümlədən müasir və milli musiqi ifadə vasitələrinin təsiri səciyyəvidir.

**Tədqiqatın elmi yeniliyi.** Azər Dadaşovun yaradıcılıq irsi hər zaman musiqi ictimaiyyətinin diqqət mərkəzində olmaqla bərabər, musiqişünaslıq tədqiqatlarının da araşdırma obyektinə çevrilmişdir. Lakin bəstəkarın fortepiano musiqisi xüsusi olaraq elmi tədqiqata cəlb edilməmişdir. Bununla bağlı ayrı-ayrı elmi araşdırmalarda müəyyən təhlillər aparılmış, fikirlər söylənmişdir. Dissertasiya işinin elmi yeniliyi ilk növbədə, A.Dadaşovun fortepiano musiqisinin xüsusi tədqiqat obyekti olaraq seçilməsi və araşdırılması ilə bağlıdır. Bu nöqteyi-nəzərdən işin elmi yeniliyini şərtləndirən əsas müddəaları təqdim edirik:

1. Dissertasiya işində bəstəkar A.Dadaşovun fortepiano əsərləri ilk dəfə olaraq xüsusi tədqiqat obyekti kimi tədqiq edilmişdir;
2. Tədqiqat işində ilk dəfə olaraq A.Dadaşovun fortepiano əsərlərinin janr və forma təsnifatı aparılmış, üslub göstəriciləri müəyyənləşdirilmişdir;
3. Tədqiqata cəlb edilən əsərlərin əksəriyyəti ilk dəfə burada təhlil edilmişdir;

4. A.Dadaşovun fortepiano yaradıcılığının rolu və mövqeyi Azərbaycan musiqi incəsənəti və milli piano ifaçılığı kontekstində ilk dəfə geniş şəkildə işıqlandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bəstəkar yaradıcılığı ilə bağlı ərsəyə gələn musiqişünaslıq tədqiqatları hər zaman Azərbaycan musiqi tarixinin öyrənilməsində və elmi mənbə, dərs vəsaiti kimi tətbiqində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan dissertasiya işində təqdim edilən elmi araşdırma bəstəkar yaradıcılığını öyrənən gənc tədqiqatçılar tərəfindən və "Musiqi tarixi", "Musiqi nəzəriyyəsi", "Musiqi əsərlərinin təhlili" fənlərinin tədrisində istifadə oluna bilər. Təhlil zamanı ifaçılıq məsələlərinin şərhi isə gənc pianoçu və pedaqoqlar üçün metodik tövsiyə kimi dəyərləndirilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri və müddəaları Azərbaycan və Türkiyə kimi ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə dərc olunan səkkiz məqalə və üç konfrans məruzəsində öz əksini tapmışdır. Mövzu ilə bağlı məruzələr bir sıra yerli və beynəlxalq elmi-nəzəri konfranslarda dinlənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, dörd paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 6 səhifə, 11555 işarə; birinci fəslin birinci paraqrafı 25 səhifə, 37334 işarə; ikinci paraqrafı 23 səhifə, 32248 işarə; ikinci fəslin birinci paraqrafı 17 səhifə, 25782 işarə; ikinci paraqrafı 33 səhifə, 41318 işarə; üçüncü fəsil 39 səhifə, 58552 işarə; nəticə bölməsi 5 səhifə, 9345 işarə; istifadə edilmiş ədəbiyyat bölməsi 11 səhifə, 16628 işarə sayı həcmindədir. Dissertasiya işinin ümumi həcmi 163 səhifə, 216134 (istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla) işarə sayı həcmindədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin birinci fəsli **"Azər Dadaşovun fortepiano əsərlərində məzmun və forma vəhdəti"** adlanır və özündə iki paraqrafı birləşdirir. Birinci pararqraf **1.1. "A.Dadaşovun Fortepiano və kamera orkestri üçün konsertlərində musiqi dilinin üslub xüsusiyyətləri"** adlanır. Adından da məlum olduğu kimi bu paraqrafda Azər Dadaşovun fortepiano konsertlərinə nəzər salınmışdır.

A.Dadaşovun fortepiano üçün yazılmış əsərləri onun yaradıcılığında çox böyük bir maraq kəsb edir. Burada kiçik və iri həcmli əsərlərin toplanması hər yaşa uyğun repertuar seçiminə imkan yaradır. Bəstəkar fortepiano və orkestr üçün üç konsert bəstələyib. Birinci Konsert 2004-cü, ikinci Konsert 2009-cu, üçüncü Konsert isə 2010-cu ildə ərsəyə gəlib. Bu konsertlər üçün ümumiləşdirici əsas cəhət hər birinin fortepiano və kamera orkestri üçün nəzərdə tutulmasıdır. Diqqət çəkən digər cəhət birinci və üçüncü konsertlərin birhissəli, ikinci konsertin isə üçhissəli olmasıdır.

A.Dadaşov birinci fortepiano Konsertini tanınmış pianoçu, Fransa Ali Beynəlxalq Akademiyasının professoru, əməkdar artist Adilə Əliyevanın sifarişi ilə 2004-cü ildə bəstələyib. Konsertin ilk ifaçısı da məhz elə Adilə Əliyeva olub.

Konsertin kompozisiya quruluşunda romantik ənənələrlə yanaşı, həm də neofolklorizm xüsusiyyətləri özünü bariz şəkildə göstərir. Bu da əsas tematik özəyin məhz xalq mahnısı ilə bağlı olmasından irəli gəlir. Üç hissəli silsilənin bir hissə daxilində təcəssüm tapması isə konsert janrının XIX əsrdən başlanan yeni mərhələsi ilə bağlıdır. Bundan başqa, bəstəkar klassik konsertlərə xas olan solist-orkestr yarışması prinsipindən də imtina etmiş və solistin mövqeyini ön plana çıxarmışdır. Bu özünü partiyaların xarakterində, əsas mövzuların təqdimatında və obraz-ideya məzmununun açılmasında, solo partiyanın üstün mövqe daşımasında göstərir. Bütün əsər boyu orkestr yalnız müşayiətçi kimi çıxış edir, bir sıra epizodlarda isə tamamilə susur. Bu da solistin hökmran mövqeyini daha qabarıq nəzərə çarpdırır. Orkestrin partiyasında daha çox harmonik fon, müəyyən alətlərin ayrı-ayrı çıxış etməsi, ostinato rolu müşahidə edilir. Konsertdə müxtəlif xarakterli epizodlar bir-birini

əvəz etsə də, muğam improvizasiya özəyinin bütün əsər boyu qırmızı xətt kimi keçməsi aydın görünür. Bəzən bəstəkar muğam intonasiyalarını natural, bəzən xromatizmlərlə, bəzən də akkordlu faktura ilə göstərir. Lakin hər keçiddə əsərin xalq musiqisinə, muğama bağlılığı özünü qabarıq şəkildə büruzə verir.

A.Dadaşov fortepiano və kamera orkestri üçün ikinci konsertini 2009-cu ildə bəstələmişdir. Bu əsər həmin ildə Bakıda “Bəstəkarlar – uşaqlara” devizi altında keçirilən fortepiano əsərlərinin ən yaxşı ifası üzrə müsabiqənin 3-cü mərhələsinin proqramına daxil edilmişdir. Digər iki konsertdən fərqli olaraq bəstəkar bu dəfə üç hissəli silsiləyə müraciət etmişdir. İkinci konsertdə A.Dadaşov daha çox janrın klassik ənənələrinə yaxınlaşmışdır. Bununla belə, mövzuların təzadlığı daha çox janrlılıq çərçivəsində həll olunur. Bundan başqa, digər iki konsertdə olduğu kimi, burada da solist-orkestr münasibətlərinin qurulması əsas etibarilə birincinin üstünlüyü ilə baş verir. Bəstəkarın musiqi dilinə xas olan zəngin ritm-intonasiya, xalq musiqi janrlarından ustalıqla bəhrələnmə, eləcə də dərin lirizmi ilə seçilən obraz-emosional məzmunlu mövzular konsertin əsasını təşkil edir. Gənc pianoçuların müsabiqəsi üçün nəzərdə tutulan bu əsər öz bədii mahiyyətini və janra xas olan əsas cəhətləri qoruyub saxlayaraq fortepiano repertuarını zənginləşdirməklə yanaşı, ifaçıların musiqi zövqünün milli köklər üzərində inkişaf etməsinə zəmin yaradır.

Fortepiano konsertləri içərisində öz kiçik həcminə görə üçüncü konsert (2010) kamera musiqisinə xas olan bir sıra əlamətləri özündə büruzə verir. Bəstəkar üç hissəli silsiləni bir hissədə cəmləşdirərək, daha çox konsert pyes xarakteri verən obraz-emosional musiqi məzmunlu kompozisiya yaratmağa nail olmuşdur. Əsərdə yer alan lirik əhvali-ruhiyyənin üstünlüyü, fortepiano konsertlərinə xas olan mürəkkəb bədii-texniki ifaçılıq üsullarının tətbiq edilməməsi onun əsas etibarilə tədris proqramının tələblərinə cavab verməsini və sırf musiqi məktəblərinin yuxarı sinifləri üçün nəzərdə tutulması məqsədini təsdiqləyir. Üçüncü fortepiano konserti Azər Dadaşovun əsərlərinin ən yaxşı ifası münasibətilə təşkil olunan fortepiano müsabiqəsində ifa edilmişdir.

Beləliklə, bəstəkarın hər üç konserti haqqında ilk növbədə onu demək olar ki, bu əsərlər eyni dövrün məhsuludur. Lakin bu

konsertlərdən birinci ilə digər ikisi arasında üslub və ideya fərqi danılmazdır. Birinci konsertdə improvizasiyalı üslub konsertin musiqi dili ilə yanaşı, əsərdə yer alan obrazların təcəssümündə də özünü büruzə verir. Digər iki konsert isə müsabiqə məqsədilə yazılmışdır və burada tədris mahiyyəti vacib fakt kimi özünü göstərir. Bununla belə, konsertləri forma təcəssümü baxımdan qruplaşdırdıqda birinci və üçüncü konsert bir, ikinci konsert isə klassik üçhissəli formada yazılmışdır. Bəstəkarın birhissəli formaya üstünlük verməsi isə romantik ənənələrin təsirindən qaynaqlanır. Hər üç konsertdə A.Dadaşovun musiqi dilinə xas olan bir sıra cəhətləri izləmək mümkündür. Burada xalq musiqsinin təsirini xüsusilə qeyd etmək lazımdır. Belə ki, birinci və ikinci konsertdə bəstəkar bilavasitə xalq musiqi nümunələrindən sitat şəklində bəhrələnmiş, üçüncü konsertdə isə bu təsir özünü əsərin melodik və ritmik xüsusiyyətlərində göstərmişdir. Eyni zamanda hər üç konsertdə bəstəkarın musiqi dili üçün səciyyəvi olan caz elementlərini duymaq mümkündür. Fortepiano konsertlərində yer alan bir sıra mövzuların bəstəkarın digər fortepiano əsərlərində müşahidə edilməsi isə A.Dadaşovun yaradıcılıq üslubu üçün səciyyəvi cəhət kimi çıxış edir. Konsertlərdə A.Dadaşovun "Həmd səna" və "Lirik pyeslər" məcmuəsindən "Kadensiya" adlanan pyesin musiqi məzmunu müşahidə olunur. Beləliklə, A.Dadaşovun konsertləri həm bəstəkarın fortepiano musiqisinə, həm də Azərbaycanda instrumental konsert janrının maraqlı nümunələri kimi ifaçılıq sənətinin inkişafına təsir göstərmiş əsərlərdir.

Birinci fəslin ikinci paraqrafı **1.2.“ A.Dadaşovun fortepiano yaradıcılığında iri və kiçik həcmli pyeslər**” adlanır. Bu paraqrafda bəstəkarın fortepiano və kamera orkestri üçün "Poema"sı, o cümlədən "Baqatel", "Məzəli rəqs", "Fəza təranəsi" və "Həmd-səna" kimi kiçik həcmli pyesləri təhlil edilmişdir.

A.Dadaşovun Fortepiano və kamera orkestri üçün "Poema"sı 2012-ci ildə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə ithafən yazılmış, 2013-cü ildə isə bəstəkar tərəfindən yenidən işlənərək musiqi ictimaiyyətinə təqdim edilmişdir.

A.Dadaşovun fortepiano və kamera orkestri üçün yazdığı "Poema" və təhlil etdiyimiz digər müstəqil pyeslər janrın ənənəvi cəhətləri ilə yanaşı, bəstəkarın fərdi üslubuna xas olan özünəməxsus

cizgiləri də özündə əks etdirir. "Poema"nın iki redaksiyası arasında müşahidə edilən yazı üslubunun inkişafa uğraması özünü ilk növbədə musiqi dilinin, orkestr tembr boyalarının zənginləşdirilməsində, faktura baxımından piano texnikasının qabarıq nümayişində, mövzuların obrazlı ifadəsi və parlaq kolorit əldə etməsində göstərir. Nəticədə ikinci redaksiyada əsər bir hissəli konsertlərə xas olan irimiqyaslılıq, ikili ekspozisiya, solo və orkestr rəqabətinin gücləndirilməsi kimi cəhətlər əldə etmiş olur. Bəstəkar bu əsərin ifası zamanı pianoçunun qarşısında bir sıra özünəməxsus texniki çətinliklərin öhdəsindən gəlmək, interpretasiya məsələlərinin həlli kimi tapşırıqlar qoyaraq ciddi münasibət tələb edir. Bu da gənc ifaçıların peşəkar pianoçu kimi yetişməsində, ifa etdikləri əsərin interpretasiya sahəsində biliklərinin artırılmasında müstəsna rol oynayır.

Kiçik həcmli pyeslərdə iki əsas mövzu üstünlük təşkil edir. Bunlardan biri uşaqlarla, digəri isə A.Dadaşovun ümumi yaradıcılığı üçün olduqca səciyyəvi olan dini mövzuların tərənnümü ilə bağlıdır. Bəstəkarın dini mövzulu əsərlərində əsas dialoq insan və tanrı arasında yaranan vəhdəti özündə ifadə edir. Bu münasibət özünü vokal-instrumental əsərlərdə daha qabarıq büruzə verir. Çünki burada poetik mətn məzmunun açılmasında mühüm rol oynayır. İnsanın tanrıya münasibəti, onun möcüzəsi qarşısında heyrəti və şükr dolu müraciəti bu əsərlərin əsas ideya xəttini təşkil edir. Məhz bu səbəbdən musiqidə heç bir dərin təzaddan söhbət getmir. Əksinə bütün mövzular sanki bir-birini davam etdirir, bir-birindən doğur.

Dissertasiya işinin ikinci fəsli **"Azər Dadaşovun fortepiano silsilələrinin janr xüsusiyyətləri"** adlanır və özündə iki paraqrafı birləşdirir. Birinci paraqraf **2.1. "Proqramsız fortepiano silsilələrində miniatür janrın təfsir üsulları"** adlanır. Burada A.Dadaşovun fortepiano üçün "Altı prelüd" və "Altı miniatür" (1968) silsilələrinin təhlili yer alır.

Fortepiano silsilələri proqramsız və proqramlı olmaqla iki qrupda qərarlaşır. Belə ki, "Altı miniatür" (1978), "Çiçəkçin", "Atmacalar", "Altı qəmli pyes", "Lirik pyeslər" silsilələri proqramlı, "Altı prelüd", "Altı miniatür" (1968) silsilələri isə proqramsız əsərlərdir. Proqramsız silsilələrdə müəyyən janr təşkilini görmək mümkündür. "Altı prelüd" silsiləsi müxtəlif üsul və vasitələrlə əldə edilmiş təzadlılıq prinsipi üzrə

qurulmuş prelüdlərdən ibarətdir. Burada birinci prelüd silsilənin giriş funksiyasını daşıyır. İkinci, dördüncü və altıncı prelüdlər lirik, üçüncü və beşinci prelüdlər isə rəqsvari, tokkatalı xətti təşkil edir. Lirik prelüdlər arasında əlaqə faktura yaxınlığı, sinkopalı və punktirli ritmik şəkillərin tətbiqi ilə də səciyyəvidir. Üçüncü və beşinci prelüdlər öz həcmi və mürəkkəb faktura tiplərinin tətbiqi ilə seçilir. Prelüdlər əsas etibarilə sadə üç hissəli formaya malikdir. Qeyd edək ki, formanın təcəssümündə bəstəkar klassik ənənələrə sadiq qalmışdır. Bəzi prelüdlərdə bölmələrarası sərhədlər temp göstəriciləri ilə də müəyyən edilir. Reprizada bəstəkar registr rəngarəngliyindən tez-tez istifadə edir. Prelüdlər dinamik boyaların zənginliyi ilə seçilir. "Altı prelüd" silsiləsində A.Dadaşov politonallığa, tonal mərkəzə əsaslanma kimi prinsiplərə istinad edir və bununla gənc ifaçıları maraqlı miniatür nümunələri misalında müasir musiqi dilinin qanunauyğunluqları ilə tanış edir.

"Altı miniatür" silsiləsində isə bəstəkar hər pyesdə müəyyən janr və məqam-intonasiya, ritm xüsusiyyətlərindən ustalıqla bəhrələnir. Bununla da pyeslərdə xalq musiqi janrlarına, eləcə də Avropa və milli rəqslərə xas olan cəhətləri sezmək mümkündür.

İkinci fəslin ikinci paraqrafı **2.2. "Proqramlı fortepiano silsilələrində obraz və məzmunun təcəssümü"** adlanır. Burada bəstəkarın fortepiano üçün "Çiçəkçin", "Altı miniatür" (1978), "Atmacalar", "Altı qəmli pyes", "Lirik pyeslər" silsilələri təhlil edilir.

Proqramlı silsilələrdə iki üsulun tətbiqini müşahidə edirik. Belə ki, bəstəkar həm ümumi silsiləyə ad verməklə, həm də silsilə daxilində hər pyesi xüsusi olaraq adlandırmaqla proqramlılıq yaradır. Ümumi ad altında birləşən silsilələrdə pyeslərin ümumi ideya-obraz altında birləşməsi diqqəti cəlb edir. Miniatürlərin adlandırılması ilə səciyyəvi olan silsilədə isə ayrı-ayrı əhvali-ruhiyyələri təcəssüm etdirən rəngarəng obrazlar toplusu ilə qarşılaşırıq. A.Dadaşovun proqramlı fortepiano silsilələrinə nəzər saldıqdan sonra belə nəticəyə gəlmək olur ki, bu əsərlər ilk növbədə Azərbaycan fortepiano ifaçılığı və repertuarının zənginləşməsində mühüm əhəmiyyət kəsb edir. Hər silsilə öz-özlüyündə bəstəkarın üslubuna xas olan əsas cəhətləri əks etdirməklə yanaşı, həm də bəstəkarın dünya musiqisindən ustalıqla bəhrələndiyini bariz nümayiş etdirir. Digər tərəfdən fortepiano

silsilələrində A.Dadaşov xalq musiqi janrlarına xas olan melodiya, ritm, obraz xüsusiyyətlərinə geniş istinad edir və hətta bu üslubda bütöv bir əsər ("Çiçəkçin" fortepiano silsiləsi) təqdim edir. Proqramlı və proqramsız şəkildə qruplaşdırdığımız fortepiano silsilələrində bəstəkarın məsələyə müxtəlif yanaşmasını müşahidə etdik ki, bu da romantik bəstəkarların yaradıcılığından qaynaqlanır.

Fortepiano silsilələrində registrlər vasitəsilə tembr təzadlığının yaradılması, sakit və şıltaq təbiətli pyeslərin ardıcıllaşması, müxtəlif faktura tiplərinin tətbiqi, variantlı təkrarlar, dinamik rəngarənglik və s. yer almışdır. A.Dadaşov xalq rəqslərinə xas olan melodiya, ritm, məqam, faktura və s. elementlərdən ustalıqla istifadə edərək fortepiano silsilələrində maraqlı obrazlar, rəngarəng emosiyalar yaratmış və musiqi dilində geniş şəkildə öz əksini tapan variantlılığa nail olmuşdur. Pyeslərdə həm reçitativ-deklamasiyalı, həm də melodik məzmunlu mövzular müşahidə edilir. Xüsusilə, bəstəkarın tez-tez tətbiq etdiyi ostinatolu bas və ritmik sinkopalar özünü göstərir.

Dissertasiya işinin üçüncü fəsli **"Azər Dadaşovun fortepiano musiqisində müxtəlif üslubların tətbiqi ənənə və müasirlik kontekstində"** adlanır. Bu fəsildə bəstəkarın əsərlərində müşahidə edilən müxtəlif üslub və tendensiyaların təzahürü, eləcə də fərdi üslubuna xas olan səciyyəvi cəhətlər, müqayisəli təhlil vasitəsilə müşahidə edilən mövzu və obrazların aparıcı mövqeyi aşkara çıxarılmışdır. Azərbaycan bəstəkarlıq məktəbinin əldə etdiyi parlaq nailiyyətləri öz yaradıcılığında ustalıqla nümayiş etdirən və əsərləri ilə bariz nümunə sərgiləyən Azər Dadaşov milli fortepiano musiqi incəsənətinə dəyərli əsərlər bəxş etmişdir. Yaradıcılığının hər bir sahəsində olduğu kimi, burada da özünəmxəsus estetik zövq və dəsti-xətt nümayiş etdirən bəstəkarın fortepiano üçün bəstələdiyi əsərlər bir sıra üslub xüsusiyyətləri ilə səciyyəvilik təşkil edir. Bu cəhətlərdən bir qismi A.Dadaşovun yaradıcılığına xas olan fərdi üslubundan qaynaqlanır, digərləri isə sırf fortepiano əsərlərində müşahidə edilir. Musiqinin, demək olar ki, bütün janrlarına müraciət etmiş bəstəkarın fərdi üslubu əsasən müasir dünya musiqi meyarlarının milli ənənələrlə mahir sintezindən yaranan cəhətlərlə zəngindir. Onun musiqisində xalq musiqi janrlarının sadə və aydın melodiya, ritm, məqam-intonasiya xüsusiyyətlərini duymaq mümkündür. Ən önəmli məsələ

isə, A.Dadaşovun bu bir-birindən fərqli musiqi təfəkkürlərini bir əsər daxilində birləşdirmək ustalığı ilə bağlıdır ki, bu cəhət onun vokal və simfonik musiqisində olduğu kimi, fortepiano yaradıcılığında da özünü göstərir. Simfonik janrda daha çox iri həcmli simfoniyalara üstünlük verən bəstəkar fortepiano musiqisində əksinə, miniatür janra daha çox diqqət ayırır. Maraqlıdır ki, həm iri, həm də kiçik həcmli formalarda məzmunun bitkin ifadəsini vermək bacarığı onun həm də janr və forma vəhdətini dərindən duymaq bacarığını üzə çıxarmış olur.

Bəstəkarın fortepiano yaradıcılığınının əsas hissəsini silsilələr təşkil edir. Bütün silsilələri ümumiləşdirən əsas cəhətlərdən biri də pyeslərin forma təcəssümü ilə bağlıdır. Diqqətə çəkdiyimiz digər əsərlərində olduğu kimi, silsilələri təşkil edən miniatürlərdə də A.Dadaşov formanın klassik təcəssümünə daha çox üstünlük verir. Təbii olaraq, kiçik pyeslərdə ən sadə formalar (period, sadə iki və üç hissəli formalar) tətbiq edilir. Hər bir formada onun kiçik hissələrini bir-birindən ayıran sərhədlər bəstəkar tərəfindən mövzunun təşkili ilə yanaşı, bəzi hallarda hətta digər nüanslarla, tempin və ya metrin, faktura və ya tonallığın dəyişməsi ilə vurğulanır. Bu göstəricilər həm də əsərdaxili təzadlıq yaratmağa nail olur. “Altı qəmli pyes” silsiləsində isə müşahidə edilən maraqlı cəhət ən kiçik formanın daxilində təzadlıq və repriza əhval-ruhiyyəsi yaradan quruluşun özünü göstərməsidir. Belə ki, bəzi miniatürlərdə bəstəkar üç cümləli period daxilində *aba* quruluşu ehtiva edən musiqi məzmunu təqdim edir. Bəzən giriş və koda mahiyyəti daşıyan 3-4 xanəlik kiçik parçalara da yer verilir. Bir daha A.Dadaşovun böyük formanın əlamətlərini kiçik həcmin daxilində ərsəyə gətirmək cəhdini müşahidə etmiş oluruq ki, bu da onun formanı ölçülər çərçivəsində deyil, məzmun daxilində hiss etməsi ilə bağlıdır. Ümumiyyətlə, A.Dadaşov bir bəstəkar olaraq kiçik musiqi forması anlayışına xüsusi diqqət və bacarıqla yanaşır. Onun bütün məlum olan proqramlı və proqramsız instrumental əsərləri bu baxımdan olduqca maraqlı və eyni zamanda bir-birindən tam fərqli əsərlərdir. Ən vacibi odur ki, bəstəkar çox sadə, aydın musiqi dilinə istinad edərək hər zaman insanı duyğulandıran və valeh edən lirik səhifələr ilə tanış edir.

Son olaraq, A.Dadaşovun fortepiano əsərlərinin ifaçılıq xüsusiyyətlərinə toxunmaq istərdik. İlk növbədə qeyd etməliyik ki,

bəstəkarın fortepiano əsərlərinin pianoçuların repertuarında mühüm yer tutmasına ən bariz sübut müsabiqələrlə bağlıdır. 2009-2010-cu illərdə ilk dəfə Azərbaycan Bəstəkarlar İttifaqının və Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə baş tutan A.Dadaşovun fortepiano musiqisinə həsr edilmiş respublika müsabiqəsi daha sonra bir ənənə şəklini almağa başladı. Növbəti dəfə müsabiqə 2013-cü ildə təşkil edildi. 2016-cı və 2019-cu illərdə yenidən keçirilən müsabiqələr artıq beynəlxalq səviyyədə mövqeyə sahib olaraq, nəinki ölkə daxilində, həm də onun sərhədlərindən uzaqlarda pianoçuların diqqətini özünə cəlb edə bildi. 2021-ci ildə bir sıra tədbirlər kimi, bu müsabiqə də "online" formatda təşkil edilməsinə rəğmən, xeyli sayda iştirakçısı ilə bəstəkarın musiqisinə olan marağın parlaq göstəricisi oldu. Bu müsabiqələrin Azərbaycan müasir piano ifaçılığına verdiyi töhfə ilk növbədə gənc istedadların üzə çıxması və bilavasitə Azər Dadaşov musiqisinin ən yaxşı ifaçısı kimi tanınması ilə bağlıdır. Təsadüfi deyil ki, onların sırasında Nuranə Zeynalova, Fuad Əlizadə, Nərgiz Kəngərli kimi pianoçular bu gün ifaçılıq sənətinin gənc nəslini təmsil etməklə, həm də Azər Dadaşovun fortepiano musiqisinə öz repertuarlarında mühüm yer verirlər. Bu da bəstəkarın fortepiano musiqisinin əhəmiyyətini bir daha vurğulamış olur. İkinci bir meyar isə müsabiqələrdə azyaşlı pianoçuların çoxluq təşkil etməsidir ki, A.Dadaşovun fortepiano əsərlərinin ən gənc ifaçı üçün maraqlı və əlçatan olması ilə bağlıdır. Digər tərəfdən müsabiqələrə hər il yerli pianoçularla bərabər digər ölkələrdən olan iştirakçıların qatılması bəstəkarın musiqisində təcəssüm olunan yüksək peşəkar dəyərlərin beynəlxalq səviyyədə təmsil və təbliğ edilməsinə zəmin yaratmış olur.

Bütün bu faktlar, A.Dadaşovun bir bəstəkar kimi Azərbaycan fortepiano incəsənətinin inkişafında, müasir pianoçuluq sənətinin parlaq səhifələrini əks etdirən yaradıcılıq irsinin müəllifi kimi tutduğu mövqeyi üzə çıxarmış olur. Musiqi məktəblərinin şagirdləri üçün təşkil edilən müsabiqələrlə yanaşı, A.Dadaşovun fortepiano əsərləri peşəkar pianoçuların da repertuarında yerli və xarici dinləyicilərin zövqünü oxşayır. Bu baxımdan birinci fortepiano konserti özünün ilk ifaçısı, tanınmış pianoçu Adilə Əliyevanın, o cümlədən Züleyxa Bayramova və Murad Adıgözəlzadə kimi pianoçuların maraqlı təfsirləri ilə yaddaşlara həkk olmuşdur. Bundan

başqa A.Dadaşovun fortepiano və kamera orkestri üçün "Poema"sı pianoçu Nuranə Zeynalova tərəfindən işlənərək solo şəklində ifa edilmiş, o cümlədən həmin əsər bəstəkarın əsərlərindən ibarət müsabiqələrdə birinci yerin mükafatçıları tərəfindən də dəfələrlə təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, 2021-ci ildə ərsəyə gəlmiş "Lirik Pyeslər" məcmuəsinin ilk ifaçısı isə pianoçu Ülviyyə Kazımova olub. Bəstəkarın bir sıra fortepiano əsərlərini tədqiq edən Ü.Kazımova həm də onların ifaçısı kimi dinləyicilərin rəğbətini qazanmışdır. A.Dadaşov "Lirik pyeslər" silsiləsində yer alan "Zəriflik" pyesini məhz Ü.Kazımovaya, digər "Nur içində" pyesini isə öz tələbəsi olmuş, pianoçu Nuranə Zeynalovaya həsr edib. Qeyd edək ki, N.Zeynalova bəstəkarın "Lirik pyeslər" (2021) məcmuəsinin musiqi-nəzəri təhlilini aparmış və bununla bağlı eyni ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təşkil edilmiş "Şərq və Qərb musiqi mədəniyyətlərinin dialoqu" konfransında məruzə[41] ilə çıxış etmişdir. Hər iki pianoçunun ifa etdikləri əsərlərlə bağlı həm də araşdırma və təhlillər aparması deməyə əsas verir ki, A.Dadaşovun musiqisi nəinki musiqişünasları, eyni zamanda ifaçıları da düşünməyə vadar edir. Bəstəkarın 75 illik yubiley tədbirində çıxışı zamanı N.Zeynalovanın da qeyd etdiyi kimi, A.Dadaşovun musiqisi nəinki dinləyicisini, həm də pianoçunu düşündürür, ifa etdiyi əsəri daha yaxşı dərk etmək və dinləyiciyə çatdırmaq üçün ifaçıdan musiqiyə həm də fəlsəfi yanaşma tələb edir.

A.Dadaşovun əsərlərinin ifaçıları olan N.Zeynalova, Ü.Kazımovanın ifaçılıq məsələləri ilə bağlı fikirlərinə istinad edərək belə nəticəyə gəlmək olur ki, ritm amilinin rolu burada özünü qabarıq şəkildə göstərir. Pianoçu pedaqoqlar hesab edir ki, əsərlərdə zəngin metro-ritmik rəngarənglik ifaçıdan güclü ritm duyğusu və xüsusi məharət tələb edir. Bundan başqa, fortepiano əsərlərində diqqəti cəlb edən məqamlardan biri pedalın tətbiqi ilə bağlıdır. N.Zeynalova hesab edir ki, bu əsərlərdə pedalın demək olar ki, bütün növlərindən istifadə etmək lazım gəlir.

---

[41] Zeynalova N.Ş. Azər Dadaşovun fortepiano üçün "Lirik pyeslər" silsiləsinin obrazlı-emosional məzmunu və ifaçılıq metodları // – Bakı: Musiqi dünyası, – 2022. – №4 (93), – s. 86-91.

Polifonik üslubun zənginliklərindən ustalıqla bəhrələnən bəstəkarın əsərlərinin ifası da bu mənada xüsusi diqqət və məharət tələb edir. Belə ki, çoxsəsli polifonik fakturada hər səsin ifası zamanı pianoçu əvvəlcə həmin melodik xəttin ifadə etdiyi məzmunu anlamalı, dərk etməlidir. Bu barədə N.Zeynalova da öz məruzəsində qeyd edir. Digər tərəfdən müxtəlif üslubların sintezini özündə ehtiva edən əsərlərin ifası pianoçudan həm də konkret musiqi nəzəri bilikləri əhatə edən geniş erudisiya tələb edir.

A.Dadaşovun milli musiqi janrlarına yaxından bələd olması və ustalıqla bəhrələnməsi onun fortepiano əsərlərində xüsusi incəliklə əks olunur. Bu səbəbdən, həmin əsərlərin tədris repertuarında yer alması gənc pianoçuların estetik zövqünün milli zəmində formalaşmasına təkan verir.

Dissertasiya işində aparılan təhlillər **Nəticə** bölməsində yekunlaşdırılmışdır.

Fortepiano əsərlərində ritm amili xüsusi rol oynayır və nəinki musiqi ifadə vasitəsi kimi, həm də obrazyaradıcı funksiya daşıyır. Ritm amili özünü əsas etibarilə xalq musiqi janrlarından bəhrələnmiş meyarlarla göstərir. Bu da ritmin xalq mahnı və rəqs janrı ilə əlaqəsindən irəli gələn səciyyəvi metro-ritmik quruluşların tətbiqi, eləcə də ritmik variantlılıq, ritmik variasiyalılıq, poliritmika, ritmik kontrapunkt, janrdan irəli gələn səciyyəvilik kimi üsullarla özünü göstərir. Xüsusilə rəqs və ritm tandemi bəstəkarın bütöv bir fortepiano silsiləsinin ("Çiçəkçin") əsasını təşkil etmişdir. Bəstəkarın xalq musiqisinə özünəməxsus münasibətində ritm amili xüsusi əhəmiyyət daşıyır. Lakin bununla yanaşı, bəstəkar xalq mahnı və rəqslərinin musiqi məzmunundan sitat kimi, eləcə də janr və məqam-intonasiya xüsusiyyətlərinin tətbiqi üsulu ilə bəhrələnmişdir. Bu göstərici A.Dadaşov yaradıcılığında Üzeyir Hacıbəyli ənənələrinin davamı kimi çıxış edir. Bununla belə bəstəkarın yaradıcılıq yolunda, musiqi təfəkkürünün inkişaf istiqamətlərini, əsərlərinin obraz-ideya aləmini izlədikcə mənsub olduğu Qarayev məktəbinin təsirini hiss etməmək mümkün deyil. Xüsusilə, bəstəkarın müasir musiqinin yeniliklərinə həssas münasibəti, əsərlərində dövrün ümumbəşəri problemlərini əks etdirməsi, demək olar ki, hər xanəsində vətənpərvərlik duyulan musiqi əsərlərinin yaranması A.Dadaşovun müəllimi görkəmli bəstəkar Qara

Qarayevdən örnək götürməsinin bariz nümunəsidir. Beləliklə, cəsarətlə söyləmək olar ki, A.Dadaşov Azərbaycan bəstəkarlıq məktəbinin təməl meyarlarına dayaqlanan və müasir musiqi incəsənətinin nailiyyətlərindən ustalıqla bəhrələnərək öz musiqisində milli təfəkkürdən qaynaqlanan üslub cizgiləri nümayiş etdirir.

A.Dadaşovun yaradıcılığında təqdim edilən obrazlar aləmi səciyyəvi cəhətləri ilə fortepiano musiqisində də tərənnüm olunur. Burada daha çox müşahidə edilən mövzular uşaq həyatını əks etdirən obrazlarla, eləcə də insanın mənəvi dünyasından irəli gələn müxtəlif emosional vəziyyətlər, dini məzmunlu əsərlər nümunə göstərilə bilər. Sadalanan mövzularla yanaşı, bəstəkarın yaradıcılığı üçün səciyyəvi olan vətənə sevgi hissinin tərənnümü fortepiano və kamera orkestri üçün konsertlərdə və "Poema"da öz əksini tapır. Ümumilli lider Heydər Əliyevə həsr olunmuş "Poema"da bəstəkar dahi şəxsiyyətə olan rəğbətini vətənə olan məhəbbətlə qovuşdurur və fortepiano musiqisinin ən lirik, zərif mövzuları ilə tərənnüm edir.

Forma və janr təcəssümünün özünəməxsus təfsiri A.Dadaşovun fortepiano musiqisində diqqəti cəlb edən maraqlı məqamlardan biridir. İlk növbədə qeyd etmək lazımdır ki, A.Dadaşovun fortepiano əsərlərində miniatür janrın sadə formalarda təcəssümü daha çox müşahidə olunur. Lakin iri həcmli janrlara müraciət edən bəstəkar burada formanın yığcam təfsirinə üstünlük verir. Fortepiano və kamera orkestri üçün konsertlər buna bariz nümunə ola bilər. Birinci və üçüncü konsertdə bəstəkar üç hissəli silsiləni bir hissə daxilində cəmləşdirərək məzmunun ideal təcəssümünə nail olur. Xüsusilə, birinci konsertdə klassik sonata formasının improvizasiyalı üslubda təfsiri olduqca maraqlı tapıntıdır. Eyni fikirlər fortepiano və kamera orkestri üçün "Poema"ya da aid edilə bilər. İnstrumental musiqinin sərbəst quruluşda yazılan bu janrında bəstəkar epizodlu sonata formasını istifadə etməklə yenə də yaradıcı fantaziyasından qaynaqlanan olduqca poetik və bir qədər romantik lirizmi ilə seçilən musiqi kompozisiyası yaratmışdır. İkinci fortepiano konsertində klassik üçhissəlilik nümayiş etdirilsə də, əsərin musiqi dilində caz üslubuna yaxınlıq, romantik-improvizasiyalı əhval-ruhiyyə, janr səhnələrini təsvir edən epizodlar əsas ideyanı təmsil edir.

Formanın təcəssümü miniatür janrlarda özünəməxsus şəkildə baş verir. Qeyd etmək lazımdır ki, A.Dadaşov kiçik həcmli miniatürlərdə formanın sərhədlərini yaxşı hiss edir. Təhlil zamanı ən kiçik period formasında belə bəstəkar çatdırmaq istədiyi ideyanın təfsirini məhdud çərçivədə ustalıqla reallaşdırır. Bəstəkar formanın sərhədlərini aydın göstərməyə üstünlük verərək, ən kiçik perioddan sonata simfonik silsiləyə qədər klassik bölgülərin qorunmasını mexaniki sxem üzrə deyil, yaradıcı təxəyyülün intuisiyası ilə həyata keçirir. Nəticədə məzmunun təcəssümü formanın sərhədlərini aşmadan dinləyicini öz cazibəsinə alaraq insan təfəkkürünün ən dərin qatlarına qədər aparmağa qadir olan musiqi kompozisiyalarında parlaq şəkildə tərənnüm olunur.

Məzmun, obraz, mövzu anlayışları A.Dadaşovun fortepiano musiqisində xüsusi məna yükü daşıyır. Belə ki, bəstəkarın fortepiano musiqisində müəyyən mövzularla müxtəlif illərin yaradıcılıq məhsulu olan fərqli janr və forma daxilində qərarlaşan əsərlərdə qarşılaşmaq olduqca səciyyəvi haldır. Bu mövzular ən müxtəlif obrazlar dairəsi ilə bağlıdır. Onların sırasında insan və tanrı tandemi, mənəvi dünyanı ifadə edən müxtəlif emosional vəziyyətlər, müəyyən üslub və ya janrı kəsb edən bütöv musiqi əsərləri və s. yer alır. Məsələn, A.Dadaşovun 1968-ci ildə yazılmış “Altı miniatür” silsiləsi ilə 1978-ci ildə ərsəyə gəlmiş “Altı miniatür” silsiləsinin bilavasitə əlaqəsi diqqəti cəlb edir. O cümlədən, bu əlaqələr bəstəkarın 2001-ci ildə işıq üzü görmüş “Atmacalar” fortepiano silsiləsində də aşkar olunur. Sadalanan silsilələrin musiqisi həm də bəstəkarın “Prelüd-Fuqa-Postlüdiya” triptixi ilə də bilavasitə əlaqə təşkil edir. Xüsusilə Prelüd və Fuqanın mövzuları variantlı şəkildə yenidən “Atmacalar” silsiləsinin daxilində üzə çıxır. Burada müxtəlif pyeslərin ya olduğu kimi, ya da müəyyən variant dəyişiklikləri ilə yenidən ortaya çıxması sanki bəstəkarın müxtəlif mərhələlərdə həyata münasibətinin dəyişən və dəyişməyən tərəflərini şərh edir.

Qeyd etdiyimiz əlaqələrin baş tutması A.Dadaşovun nəinki fortepiano əsərləri daxilində, həm də yaradıcılığının digər sahələrində də diqqəti cəlb edir. Bu baxımdan dini mövzuların tərənnümü kimi çıxış edən “Həmd-səna” əsərini misal göstərə bilərik. Bu əsər həm kiçik vokal miniatür, həm fortepiano miniatürü, həm ikinci fortepiano

konsertində, həm də 13-cü simfoniyada lirik mövzu kimi meydana çıxır. Ən son həmin miniatür yenidən 2021-ci ildə çap olunmuş "Lirik pyeslər" məcmuəsinin birinci nömrəsi kimi təqdim olunur. Məhz bu mövzu bəstəkarın tanrıya, ilahi qüdrətə olan münasibətinin dəyişməz təmsilçisi kimi çıxış edir. Fortepiano əsərləri arasında səciyyəvi əlaqələr həm də ikinci və üçüncü fortepiano konsertinin mövzularında üzə çıxır.

A.Dadaşovun fortepiano yaradıcılığında xalq musiqisinə münasibət özünü bir neçə cəhətdən göstərir. Bəstəkar milli bəstəkarlıq üslubuna xas olan ənənələrə sadiq qalaraq xalq mahnı və rəqslərindən sitat şəkildə bəhrələnmişdir. Bunu birinci fortepiano konsertində və "Çiçəkçin" silsiləsində müşahidə edirik. Bundan başqa xalq musiqi janrlarının ənənəvi cəhətlərinin tətbiqi də bəstəkarın fortepiano musiqisi üçün səciyyəvidir. Bu baxımdan ritm amili parlaq nümunədir.

Məqam-intonasiya xüsusiyyətlərinin təsiri isə yenidən milli meyarlara həssas münasibət bəsləyən bəstəkarın fortepiano musiqisində müasir ifadə vasitələrinin sintezində müşahidə edilir. Burada seyira yazı texnikası ilə milli məqamların uzlaşması, eləcə də major-minor və qədim yunan məqamlarının birgə tətbiqi bəstəkarın maraqlı tapıntısı kimi diqqəti cəlb edir.

Beləliklə, A.Dadaşovun fortepiano əsərləri üzərində aparılan təhlillərin yekunu olaraq aşağıdakı nəticələri əldə etdik:

- A.Dadaşovun fortepiano musiqisi yaradıcılığının mühüm hissəsini əhatə etməklə rəngarəng janrlarla təmsil olunur;
- Bəstəkar fortepiano yaradıcılığında iri həcmli konsertlərdən tutmuş ən kiçik formalı miniatürlərə qədər geniş və zəngin irs ərsəyə gətirmişdir;
- Fortepiano əsərlərini iri və kiçik həcmli, proqramlı və proqramsız olaraq müxtəlif qruplarda təsnif etmək mümkündür;
- Fortepiano musiqisində bəstəkar xalq musiqisindən sitat, məqam-intonasiya, ritmik özünəməxsusluq, janr xüsusiyyətləri və s. üsullardan bəhrələnmişdir;
- A.Dadaşovun fortepiano əsərləri üçün müxtəlif üslubların, o cümlədən müasir və milli musiqi ifadə vasitələrinin sintezi səciyyəvidir;
- Fortepiano əsərlərinə formanın klassik təcəssümü ilə yanaşı, birhissəlilik, monotematizm, təzadlılığın tembr və dinamik boyalar, emosional rəngarənglik ilə əldə edilməsi kimi cəhətlər xasdır;

- Bəstəkar yaradıcılığının müxtəlif dövrlərində müəyyən mövzulara dəfələrlə qayıdır və onları ya olduğu kimi, ya da variantlı şəkildə dəyişərək təqdim edir;

- A.Dadaşovun fortepiano musiqisi müasir Azərbaycan pianoçuluq sənətinin inkişafında xüsusi əhəmiyyətə malikdir və onun parlaq səhifələrindən birini təşkil edir.

Beləliklə, A.Dadaşovun yaradıcılığı və onun əhəmiyyətli hissəsini təşkil edən fortepiano əsərləri XX əsrin ikinci yarısı və XXI əsrin ilk iyirmi illiyində Azərbaycan klassik musiqi incəsənətinin parlaq səhifəsini təşkil edir. Bəstəkarın fortepiano musiqisi bu sənətin həm bəstəkar yaradıcılığı, həm də ifaçılıq mədəniyyəti kontekstində inkişafının yeni mərhələsini və müasir təmayüllərini özündə əks etdirir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**

1. Xankişiyeva, İ.X. Azər Dadaşovun “Atmacalar” fortepiano silsiləsində miniatür janrın təcəssümü // – Bakı: Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, – 2019. – № 2(7), – s.85-91.
2. Xankişiyeva, İ.X. Azər Dadaşovun fortepiano miniatürlərinin janr xüsusiyyətləri // “Musiqişünaslığın aktual problemləri” konfransının materialları, – Bakı: – 2019, – 4-5 dekabr, – s.52-57.
3. Xankişiyeva, İ.X. A.Dadaşovun fortepiano və orkestr üçün 1 saylı konsertində milli lad-intonasiya ənənələrinin təzahürü // – Bakı: Musiqi dünyası, – 2020. – № 4(85), – s. 8620-8628.
4. Xankişiyeva, İ.X. Azer Dadaşov’un “Altı prelüd” Dizisinin Müzik Dilinin Özellikleri // VI Uluslararası “Müzik ve Dans” Kongresinin materialları, – Türkiyə, – 30-31 dekabr, – 2020, – s.218-223.
5. Xankişiyeva, İ.X. Azər Dadaşovun fortepiano üçün “Çiçəkçin” pyeslər silsiləsi //– Naxçıvan: Axtarışlar, – 2021. – № 1(39) (cild 15), – s.158-162.
6. Xankişiyeva, İ.X. Azər Dadaşovun fortepiano və kamera orkestri üçün iki saylı konsertində formanın təcəssüm xüsusiyyətləri // – Bakı: Musiqi dünyası, – 2021. – № 2(87), – s.19-24.

7. Xankişiyeva, İ.X. Azər Dadaşovun piano və kamera orkestri üçün poemasında janrın təcəssüm xüsusiyyətləri //– Bakı: Sənət akademiyası, – 2021. – № 2(14), – s. 117-127.
8. Xankişiyeva, İ.X. Azer Dadaşov'un piano çalışmasına bir bakış // – Ankara: Pearson journal of Social sciences and humanities, – 2021. – № 15 (cild 6), – s. 1-10.
9. Xankişiyeva, İ.X. Azər Dadaşovun musiqisində dini mövzu və multikultural dəyərlərin təcəssümü // "Bəstəkar və zaman" konfransının materialları, – Bakı, – 20-21 aprel, – 2021, – s.224-233.
10. Xankişiyeva, İ.X. Azər Dadaşovun fortepiano əsərlərinin bəzi üslub cizgiləri // – Naxçıvan: Axtarışlar, – 2022. – № 1 (cild 16), – s. 198-206.
11. Xankişiyeva, İ.X. Azer Dadaşovun piyano eserlerinde tür sorununun çözüm yolları // – Isparta: Türk müziği, – 2022. – № 2 (cild 2), – s. 77-87.

Dissertasiya müdafiəsi 22 yanvar 2024-cü il tarixində saat 14:00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç. 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 dekabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.12.2023

Kağızın formatı: 60x84 1/16

Həcm: 39 198 işarə

Tiraj: 100